AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJI UNIVERSITETI

Pedaqoji universitet və institutlarda
bakalavr hazırlığı üçün proqram

# EKSPERIMENTAL PSIXOLOGIYA
## 050121. TƏHSILDƏ SOSIAL-PSIXOLOJI XIDMƏT

**Proqram "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə təhsil alanlar üçün nəzərdə tutulmuşdur.**

Bakı-2015

AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJI UNIVERSITETI

**Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram**

# EKSPERIMENTAL PSIXOLOGIYA
## 050121. TƏHSILDƏ SOSIAL-PSIXOLOJI XIDMƏT

**Proqram "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə təhsil alanlar üçün nəzərdə tutulmuşdur.**

*Azərbaycan Respublikası Təhsil Nazirinin 29.05.2015-ci i tarixli 621 saylı əmrinə əsasən çap edilir.*

Az2.286949
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

**Bakı-2015**

Tərtib edən: - ADPU-nun yaş və pedaqoji psixologiya kafedrasının dosenti Edison Məmməd oğlu Quliyev.

Rəyçilər: - M.C.İsmayılova-AMİ-nin psixologiya kafedrasının dosenti
-Q.V.Rəhimova-ADPU-nun yaş və pedaqoji psixologiya kafedrasının baş müəllimi, p.ü.f.doktoru.
-M.S.Əliyev-ADPU-nun ümumi psixologiya kafedrasının baş müəllimi, p.ü.f.doktoru.

Redaktor: -N.T.Rzayeva-AMİ-nin psixologiya kafedrasının müdiri, dosent.



## İzahat vərəqəsi

"Eksperimental psixologiya" kursu üzrə tərtib olunan proqram "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Tədris edilən kursun əsas məqsədi: 1) elmi-təbii dünyagörüşün formalaşması, 2) tələbələrin psixoloji tədqiqatın metodologiyası ilə yaxından tanış edilməsi, 3) tələbələrdə psixoloji metodlar sistemi haqqında əhatəli təsəvvürün formalaşdırılması və metodlara bələdləşmə bacarığının inkişaf etdirilməsi.

"Eksperimental psixologiya" kursunun tədrisi prosesində qarşıda duran **vəzifələr:**

1. Eksperimental psixologiyanın əsas anlayışlarının mənimsənilməsi.
2. Tədqiqatçı fəaliyyətinin deontologiyası ilə tələbələrin tanış edilməsi.
3. Eksperimentlərin planlaşdırılması, təşkil olunması və aparılması, nəticələrin interpretasiyası və təqdim olunması üsullarının tələbələrə aşılanması.
4. Tələbələrin klassik psixoloji tədqiqatlarla tanış edilməsi.
5. Əsas metodlar qrupunun xarakteristikası və hər qrup daxilində olan metodların tədqiqat imkanlarının müəyyənləşdirilməsi.
6. Psixoloji tədqiqatın prinsiplərinin və psixologiyanın aparıcı metodlarının ilkin olaraq mənimsənilməsi.

"Eksperimental psixologiya" kursu üzrə materialı mənimsəyən tələbə **nail olmalıdır:**

1. Eksperimental psixologiyanın əsas anlayışlarını mənimsəməlidir.
2. Peşə etikasına uyğun olaraq apardığı tədqiqatın deontoloji təhlilini verməyi bacarmalıdır.
3. Psixoloji tədqiqatın və psixoloji müayinənin aparılması prinsiplərini mənimsəməlidir.
4. Psixologiyada istifadə olunan çoxşaxəli psixoloji metodlar haqqında bitgin təsəvvürə malik olmalıdır.

5. Psixoloji metodların əsas qrupları və aparıcı psixoloji metodların xüsusiyyətləri və tətbiqi qaydalarını bütöv şəkildə təsəvvür etməyi bacarmalıdır.
6. Psixoloji eksperimentlərin nəticələrini həm kəmiyyət və həm də keyfiyyət baxımından tələb olunan səviyyədə təhlil etməyi və ümumiləşdirməyi bacarmalıdır.

"Eksperimental psixologiya" kursu xüsusi elm sahəsi olmaqla psixoloji tədqiqatın nəzəriyyə və praktikasının əsas məsələlərini öyrənir və onun predmetini psixoloji metodlar sisteminin öyrənilməsi təşkil edir. Bu kursun demək olar ki, psixologiyanın bütün sahələri ilə, xüsusilə ümumi psixologiya və psixodiaqnostika ilə sıx əlaqəsi vardır. Bu baxımdan "Eksperimental psixologiya" fənninin "Ümumi psixologiya" kursu ilə eyni smestrdə tədris olunması daha məqsədəuyğundur. "Eksperimental psixologiya" fənni istinad xarakterli kurs olduğundan, onun öyrənilməsi tədris olunan digər psixoloji fənnlərin daha məzmunlu və yaradıcı planda mənimsənilməsi üçün əlverişli zəminin yaradılmasını təmin edir.

Hazırda tətbiq olunan tədris planının tələblərinə uyğun olaraq "Eksperimental psixologiya" I kursun I smestrində tədris edilir. Tədris planında 30 saat mühazirə kursu, 30 saat isə seminar məşğələləri üçün nəzərdə tutulmuşdur. Sonradan tədris planının təkmilləşdirilməsi zərurəti yaşanarsa və "Eksperimental psixologiya" kursuna ayrılan saatların ümumi həcmi artırılarsa, belə halda ayrı-ayrı mövzuların öyrənilməsinə sərf olunan mühazirə və seminar saatlarının miqdarını da müvafiq surətdə artırmaq olar.



## Predmetin məzmunu

### Mövzu 1

### Eksperimental psixologiyanın mövzusu və vəzifələri.

Müasir psixologiyada "eksperimental psixologiya" anlayışının mahiyyəti.Eksperimental psixologiyanın bir elm sahəsi kimi tərifi. Eksperimental psixologiyanın psixologiyanın digər sahələri ilə münasibətinin və əlaqəsinin özünəməxsusluğu. Psixoloji məlumatların və biliklərin növləri. Eksperimental psixologiya, onun predmeti, psixoloji elmlər sistemində mövqeyi və vəzifələri. Eksperimental psixologiya kursunun öyrənilməsi prosesində reallaşdırılması zəruri olan vəzifələr: a) elmi-nəzəri dünyagörüşün formalaşması, b) psixoloji tədqiqatın metodologiyasının mənalandırılması və təhlili, c) psixoloji metodlar və onların tədqiqat imkanları haqqında bitgin təsəvvürün formalaşması, ç) eksperimental psixologiyanın əsas anlayışlarının mənimsənilməsi, d) psixoloji tədqiqatların aparılmasının deontoloji prinsiplərinin mənimsənilməsi, e) eksperimentin aparılmasının planlaşdırılması və təşkili ilə əlaqədar biliklərin mənimsənilməsi; eksperimentin nəticələrinin müzakirə olunması qaydalarının öyrənilməsi, ə) klassik eksperimental-psixoloji tədqiqatlarla tanışlıq, f) əsas metodların tədqiqat imkanlarının xarakteristikası, g) psixoloji tədqiqatların aparılması prinsiplərinin və əsas psixoloji metodların ilkin olaraq mənimsənilməsi.

Eksperimental psixologiyanın metodologiyasının əsaslandığı əsas prinsiplər: 1. Ümumi elmi metodoloji prinsiplər: determinizm prinsipi; obyektivlik prinsipi; real eksperiment əsasında bu və ya digər nəzəriyyənin elmi baxımdan inkar olunmasının mümkünlüyü prinsipi. 2. Psixologiyaya dair özünəməxsus prinsiplər: şüur və fəaliyyətin vəhdəti prinsipi; inkişaf prinsipi; sistemli-struktur prinsipi.

Eksperimental psixologiyanın əsas anlayışları: sınanılan, validlik, seçmə, hipotez (fərziyyə), psixoloji eksperiment, ideal eksperiment, psixometriya, psixofizika.

Metod və metodikalar haqqında ümumi anlayış. Onların ümumi və fərqli xüsusiyyətləri.

Metodların təsnifi. Kompleks metodlar (müqayisəli metod, lonqityudal metod, kompleks metod). Emprik metodlar (müşahidə və özünümüşahidə, eksperimental metod, psixodiaqnostika, fəaliyyət prosesinin və nəticələrinin təhlili metodu, bioqrafik metod).Şərh metodları (genetik metod, struktur təhlil metodu, psixoqrafiya). Məlumatların kəmiyyət və keyfiyyət təhlili metodları.

Eksperimental psixologiya kursunun öyrənilməsinin nəzəri və praktik əhəmiyyəti. Müasir elmi psixologiya qarşısında duran çoxşaxəli və müxtəlif xarakterli vəzifələrin reallaşmasında eksperimental psixologiyanın rolu.

## Mövzu 2
## Eksperimental psixologiyanın təşəkkül və inkişafının qısa tarixi-psixoloji səciyyəsi

XIX əsrin ikinci yarısında psixologiyanın müstəqil elmə çevrilməsini şərtləndirən amillər. Psixologiyanın müstəqil elm kimi inkişafının elmi-təbii şəraitinin formalaşması. Sinir sisteminin və duyğu orqanlarının eksperimental metodlar vasitəsilə öyrənilməsi. Psixofizikanın, psixometriyanın formalaşması. Duyğuların və qavrayışın nəzəri əsaslarının işlənilməsi. Eksperimental metodların psixologiyaya daxil edilərək tətbiq olunması. Psixologiyanın nəzəri problemlərinin işlənilməsi. Psixologiyada tətbiqi tədqiqatların aparılması. Psixologiyanın yeni sahələrinin əmələ gəlməsi.

Elmi psixologiyanın formalaşmasının ilk mərhələlərindən başlayaraq elmi istiqamətlərin formalaşması: biheviorizm, psixoanaliz, geştaltpsixologiya, fransız sosialoji məktəbi, anlayan psixologiya, fərdi psixologiya, analitik psixologiya və başqaları.

Psixologiyanın müstəqil elmə çevrilməsi prosesinin eksperimental tədqiqatların geniş istiqamətdə aparılması ilə müşayiət olunması. Psixoloji laboratoriyaların, tətbiqi və eksperimental institutların yaradılması. Sadə psixi aktlarla yanaşı ali psixi funksiyaların öyrənilməsi imkanının reallaşdırılması. Bu istiqamətdə aparılan ilk tədqiqatlar (H.Ebbinhauz, Q.E.Müller və b.).

Psixologiyada eksperimentin geniş istiqamətdə tətbiqində və inkişafında təbiətşünaslıq elmlərinin nümunəsi və təsirinin mühüm əhəmiyyətə malik olması. Eksperimental psixologiyanın tibbi, pedaqoji və sənaye praktikası ilə sıx əlaqəsi zəminində psixologiyanın bir sıra yeni sahələrinin əmələ gələrək inkişaf etməsi üçün əlverişli şəraitin yaradılması.



Klassik elmi psixologiyada eksperimentin mövqeyi və roluna dair müzakirələrin aparılması.Bu zəmində psixologiyada iki istiqamətin formalaşması: fiziologiyaya və təbiətşünaslığa əsaslanan istiqamət; ruh haqqında elmə, tarixə və sosiologiyaya əsaslanan istiqamət. Qeyd edilən yanaşma psixologiyada baş verən parçalanmanı şərtləndirən əsas tarixi-psixoloji amil kimi. Yaranmış vəziyyətin təsiri altında klassik psixologiyada iki istiqamətin formalaşması: a) materializmə əsaslanan elmi-təbii psixologiya, b) idealizmə əsaslanan tarixi, anlayan və ya başa düşülən psixologiya.

Klassik eksperimental psixologiyanın psixologiya elminin müxtəlif sahələrinin tərkibinə daxil olmaqla parçalanması.

Müxtəlif ölkələrdə eksperimental tədqiqatların inkişafının özünəməxsus xarakterə malik olması. Bunu şərtləndirən amillər: hər bir ölkədə mövcud ənənələr; sosial situasiyanın özünəməxsusluğu;ictimai praktikanın irəli sürdüyü tələblər.

## Mövzu 3
## Almaniyada eksperimental psixologiyanın inkişafı

Almaniyada aparılan ilk psixofizioloji və psixofiziki tədqiqatlar. L.Fexnerin (1801-1887) və H.Helmholsun (1821-1894) klassik tədqiqatları. L.Fexnerin "bədən enerjisinin əqli enerji vasitəsilə gücləndirilməsi" konsepsiyası. L.Fexnerin 1860-cı ildə çap olunmuş "Psixofizikanın elementləri" adlanan əsərinin psixologiya tarixində ilk eksperimental psixoloji tədqiqat kimi dəyərləndirilməsi. L.Fexnerin psixoloji problemlərin təbiət qanunları əsasında öyrənilməsinin zəruriliyi haqqında baxışları. H.Helmholsun duyğuların öyrənilməsi ilə əlaqədar apardığı psixofizioloji tədqiqatlar və onun irəli sürdüyü "fizioloji optika" anlayışının mahiyyəti.

Eksperimental psixologiyanın inkişafında V.M.Vundtun (1832-1920) xidmətləri. Klassik psixologiyada Vundt məktəbi və onun davamçıları. 1879-cu ildə Vundt tərəfindən Leypsikdə təşkil edilən ilk eksperimental psixoloji laboratoriya klassik elmi psixologiyanın təşəkkülünü təsdiqləyən ilk tarixi-psixoloji amil kimi.

Almaniyada mürəkkəb psixi proseslərin öyrənilməsi sahəsində aparılan tədqiqatların üstünlük təşkil etməsi. Bu əsasda psixologiyanın tətbiqi sahələrinin ( tibbi psixologiya, pedaqoji psixologiya və s) inkişaf etdirilməsi. H.Ebbinhauzun (1850-1909) hafizənin öyrənilməsi sahəsində apardığı klassik tədqiqatlar. H.Ebbinhauz mexaniki hafizəni öyrənən ilk psixoloq-eksperimentator kimi. H.Ebbinhauz hafizənin öyrənilməsinə iki metodu tətbiq etmişdir: əzbərləmə metodu və saxlanılma metodu. "Unutma əyrisi" anlayışının mahiyyəti. "Yost qanunu" (A.Yost, 1897) təkrarların sayının fasilələrlə aparılmasının əlverişliyini təsdiqləyən psixoloji fenomen kimi. "Yost qanunu"na görə, köhnə assosiasiya, hazırkı anda yaranan assosiasiya ilə müqayisədə, təkrar vasitəsilə daha yaxşı möhkəmlənir.

Hafizə sahəsində Q.E.Müllerin (1850-1934) apardığı tədqiqatlar. Q.E.Müllerə görə, hafizə mexaniki olmayan qabiliyyətdir. Onun fikrincə, hafizədə yadda saxlamaya yönəlişlik mövcud olur. Müller belə hesab edirdi ki, mətin üzərində mənalı iş onun yaddasaxlanılmasını təmin edir və istifadə olunan üsullar mexaniki əzbərləmədə istifadə olunan üsullardan fərqlənir.

Görkəmli psixoloq O.Külpenin (1862-1915) rəhbərliyi altında formalaşan Vyusburq məktəbi təfəkkürün tədqiqi sahəsində formalaşan ilk klassik elmi istiqamət kimi. Bu istiqamətin tanınmış nümayəndələri: A.Mayer, A.Messer, X.Yatt, K.Büler, N.AX, K.Marve.

Almaniyada aparılan tətbiqi xarakterli tədqiqatlar. E.Krepelin (1856-1926) psixiatriyada psixoloji eksperimenti tətbiq edən ilk alim kimi.O, klinikada assosiativ eksperimenti tətbiq etmiş və bu əsasda müəyyənləşdirmişdir ki, şizofreniya və manikal-depressiv psixoz zamanı assosiasiyaların xarakterində müxtəliflik müşahidə olunur. E.Krepelin şəxsiyyətin (sağlam və ya sağlam olmayan) tədqiqat sxemini tərtib etməyə cəhd göstərmişdir.

Assosiativ eksperimentin diaqnostik məqsədlər üçün istifadə olunması. Bu istiqamətdə K.Q.Yunqun (1875-1961) və E.Bleyerin (1857-1939) apardığı tədqiqatlar. E.Bleyer təfəkkürün xüsusi formasını-aytistik təfəkkürü müəyyən edərək ayıran ilk psixoloq kimi.



Almaniyada psixologiyanın tətbiqi sahələrinin inkişafı: eksperimental pedaqogika, hüquq psixologiyası, sənaye psixlogiyası, tibbi psixologiya və s.

Almaniyada təşəkkül edərək formalaşan klassik elmi psixologiyanın başqa ölkələrdə elmi psixologiyanın inkişafında və onun eksperimental elmə çevrilməsində rolu.

## Mövzu 4
## İngiltərədə eksperimental psixologiyanın inkişafı

İngiltərədə eksperimental psixologiyanın inkişafında Ç.Darvinin (1809-1882) biologiya sahəsində apardığı tədqiqatların rolu. Ç.Darvinin 1859-cu ildə nəşr etdirdiyi "Növlərin yaranması" əsərinin psixikanın filogenetik problemlərinin öyrənilməsində əhəmiyyəti. Ç.Darvinin "insan emosiyalarının təzahürü heyvandan köçürülmüş hərəkətlərin ifadəsidir" adlanan yanaşmasının tarixi-psixoloji mahiyyəti. Ç.Darvinin irəli sürdüyü "təkamül nəzəriyyəsi"nin genetik psixologiyanın inkişafına və formalaşmasına təsiri.

Görkəmli psixoloq, bioloq və antropoloq F.S.Halton (1822-1911) Ç.Darvinin ideyalarının davamçısı kimi. F.S.Halton istedad, qabiliyyət və intellektin inkişaf problemlərinin öyrənilməsinə maraq göstərən ilk bioloq alim kimi. O, qabiliyyətlərin və intellektin ölçülməsüi sahəsində aparılan eksperimental psixoloji tədqiqatların ilk müəlliflərindən sayılır. Talantın irsiliyi haqqında Haltonun ideyaları və bununla əlaqədar çap etdirdiyi əsərlər: "Talantın irsiliyi" (1869), "İnsan qabiliyyətlərinin ölçülməsi və onların inkişafı" (1883). Haltonun 1883-cü ildə irəli sürdüyü "test" anlayışının mahiyyəti və eksperimental psixologiyanın sonrakı inkişafına onun təsiri. Haltonun işləyərək irəli sürdüyü "əkizlər" metodu və psixi inkişafın psixososial və psixogenetik problemlərinin öyrənilməsində onun rolu.

İngiltərədə fərdi fərqlərin psixologiyası adlanan elmi istiqamətin formalaşmasında F.S.Haltonun və onun ardıcıllarının (C.M.Kettel, K.Pirson, R.Fişer, Ç.Spirmen) rolu.

## Mövzu 5
## Amerikada eksperimental psixologiyanın inkişafı

Amerikada eksperimental psixologiyanın inkişafının tarixi-psixoloji şəraiti. Amerikada eksperimental psixologiyanın inkişafında U.Cemsin (1842-1910), S.Q.Xollun (1844-1924), C.M.Kettelin (1860-1944) rolu. U.Cems Amerikada eksperimental psixologiyanın banisi sayılır. O, funksionalizm nəzəriyyəsini irəli sürən ilk psixoloq olmaqla funksionalizm cərəyanının görkəmli nümayəndəsi kimi tanınır. U.Cemsin psixoloji problemlərin fəlsəfi baxımdan mənalandırılmasına və təhlilinə həsr olunmuş "Psixologiyanın prinsipləri" adlanan (1890) monoqrafiyasının əhəmiyyəti. U.Cemsin 1901-ci ildə nəşr etdirdiyi "Psixologiyanın əsasları" adlanan dərsliyinin hal-hazıra kimi Amerikanın kollec və universitetlərində istifadə olunması və bu dərsliyin dəfələrlə təkrarən nəşr olunması klassik elmi psixologiyanın inkişafının tarixi-psixoloji hadisəsi kimi.

Amerikada eksperimental psixologiyanın inkişafında S.Q.Xollun rolu. Onun rəhbərliyi altında ilk böyük eksperimental psixoloji laboratoriya təşkil edilmişdir. S.Q.Xoll 1892-ci ildə Amerika psixoloqlarının Assosiasiyasını yaratmış və onun ilk prezidenti olmuşdur. O, uşaqların hərtərəfli psixoloji tədqiqinin zəruriliyi ideyasını irəli sürmüş, anket və sorğu metodlarından istifadə etməklə tədqiqatlar aparmış və onların nəticələrini statistik üsullarla təhlil etmişdir.

Eksperimental psixologiyanın inkişafınd C.M.Kettelin rolu. O,test metodikasından istifadə etməklə psixoloji tədqiqat aparan ilk psixoloq kimi tanınır. Kettelin mövqeyinə görə, intellektual funksiyaların inkişaf səviyyələrinin ölçülməsində test metodikalarından müvəffəqiyyətlə istifadə etmək olar.

Amerikada eksperimental psixologiyanın inkişafında çoxşaxəli tədqiqatları ilə tanınan psixoloqlar: Q.Ledda (1842-1921), E.Skripçura (1864-1927), K.Sişora (1866-1949), D.Bolduin (1861-1934), D.Endjella (1869-1949), E.Titçener (1867-1927), E.Torndayk (1874-1949).

Eksperimental psixologiyanın inkişafında zoopsixologiya sahəsində aparılan tədqiqatların rolu. Bu istiqamətdə E.Torndaykın,



R.Yerksin və V.Smollanın klassik tədqiqatları psixologiya elmini heyvanların psixikasının öyrənilməsinin obyektiv metodikaları ilə zənginləşdirmişdir. Bu istiqamətdə aparılan tədqiqatlar biheviorizm cərəyanının formalaşmasını şərtləndirən mühüm amillərdən biri kimi.

Amerikada eksperimental psixologiyanın inkişafında tətbiqi-psixoloji xarakterli tədqiqatların rolu (C.M.Kettel, S.Q.Xoll və b).

## Mövzu 6
## Fransada eksperimental psixologiyanın inkişafı

Fransada eksperimental psixologiyanın inkişafının tarixi-psixoloji səciyyəsi. Fransada eksperimental psixologiyanın inkişafının tarixən psixopatologiya sahəsində aparılan tədqiqatlarla əlaqədar olması.

Eksperimental psixologiyanın formalaşmasında fransız psixoloqu A.Binenin (1857-1911) rolu. A.Bine təfəkkürün inkişafı ilə əlaqədar tədqiqatlar aparmış və daha sonra həkim Simononla birlikdə 3-12 yaşlı uşaqların öyrənilməsi və onların əqli inkişaf səviyyələrinin müəyyənləşdirilməsinə xidmət edən testlər silsiləsini işləyərək tətbiq etmişdir. A.Binenin tətbiq etdiyi testlər silsiləsi "intellektual inkişafın metrik şkalası" adı altında klassik psixologiyada elmi dövrüyəyə daxil edilmişdir. A.Binenin apardığı tədqiqatlar praktik-tətbiqi yönümə malik olmaqla pedaqoji məqsədlərin həyata keçirilməsinə xidmət etmişdir.

XIX əsrin ikinci yarısında Fransada pedaqoji psixologiya ilə yanaşı psixologiyanın digər sahələri də-tibbi, xüsusilə psixiatriya və psixonevrologiya da sürətlə inkişaf etmişdir.

Fransada nevrozların və hipnotizmin öyrənilməsi sahəsində görkəmli nevropatoloq və psixoloq J.Şarkonun (1825-1895) apardığı tədqiqatların tətbiqi-praktik istiqamətə malik olması. J.Şarko ürəkkeçməni (isteriyanı) psixopatoloji xəstəlik kimi ayırmış və onun əlamətlərini-iflicləri, keyləşməni, tutmaları-fizioloji səbəblərlə izah etmişdir.

T.Ribonun (1839-1916) Fransada empirik psixologiyanın inkişafının banisi kimi fəaliyyətinin əsas istiqamətləri. O, assosianizm nəzəriyyəsini qəbul edərək göstərirdi ki, elmi psixologiyada assosiasiya nəzəriyyəsi ən çox işlənilən sahələr sırasına daxil

edilməlidir. Ribo psixi hadisələrin anatomik-fizioloji əsaslarının öyrənilməsinin zəruriliyini irəli sürdü və fizioloji psixologiyanın prinsiplərini qəbul edirdi. Riboya görə, psixologiya eksperimental elm olmalıdır, lakin o, eksperimenti onun laborator forması ilə məhdudlaşdırmırdı. Ribo patopsixologiyanı təbiətin özünün yaratdığı təbii eksperiment kimi xarakterizə edirdi. Ribo belə hesab edirdi ki, psixologiya obyektiv genetik elm olmaqla psixi həyatın konkter faktlarını onların inkişafı prosesində öyrənməlidir. Ribo ali psixi funksiyaların təşəkkülünü insanın ictimai həyat şəraiti ilə, onun əmək fəaliyyəti ilə əlaqələndirirdi. Ribo psixoloqların ilk mətbu orqanını - "Fəlsəfi icmal"ı təsis etmiş (1876) və bu jurnal vasitəsilə bir sıra ölkələrin- İngiltərənin, Almaniyanın, Amerikanın, İtaliyanın, Rusiyanın psixoloqları ilə əməkdaşlıq etmişdir. Ribonun rəhbərliyi altında 1889-cu ildə psixoloqların Parisdə ilk Beynəlxalq konqressi keçirilmişdir.

Görkəmli fransız psixoloqları P.Janenin (1859-1949), A.Peronun (1881-1964),J.Piajenin (1896-1980), A.Vallonun (1879-1962) genetik psixologiyanın yaradıcıları kimi apardıqları tədqiqatların əsas istiqamətləri.

## Mövzu 7
## Rusiyada eksperimental psixologiyanın inkişafı

Rusiyada eksperimental psixologiyanın inkişafının tarixi-psixoloji şəraiti. Rusiyada eksperimental psixologiyanın təşəkkül və inkişafının həkim-psixiatrların fəaliyyəti ilə əlaqədar olması. XIX əsrin 80-ci illərində psixiatrik klinikaların nəznində eksperimental psixoloji laboratoriyaların təşkil olunması (Kazanda,daha sonra Peterburqda-V.M.Bexterev; Moskvada - S.S.Korsokob, A.A.Tokarskiy; Xarkovda-P.İ.Kovalevskiy; Kiyevdə-İ.A.Sikorskiy; Tartuda-E.Krepelin, V.F.Çiy). Bu laboratoriyalarda geniş problemlər üzrə tədqiqatların aparılması:psixi proseslərin gedişinə sərf olunan vaxt, müxtəlif duyğu növlərinin təzahür xüsusiyyətləri, qavrayış, hərəki reaksiyalar, diqqət, hafizə, hipnotizm hadisələri, emosiyalar, əqli və fiziki iş qabiliyyətlərinə təsir edən müxtəlif amillər və s. Psixiatrik istiqamətli tədqiqatların eksperimental psixologiyanın inkişafında rolu.



Eksperimental psixologiyanın inkişafında N.N.Lanqenin (1858-1921) rolu. N.N.Lanqenin apardığı eksperimental, tədqiqatlara istinadən irəli sürdüyü nəzəriyyələr: persepsiya qanunu, iradi diqqət nəzəriyyəsi.

Görkəmli pedaqoq və psixoloq A.P.Neçayevin (1875-1943) 1901-ci ildə hərbi-tədris müəssisələrinin Pedaqoji muzeyində (Sankt-Peterburq) təşkil etdiyi psixoloji laboratoriyanın fəaliyyətinin əsas istiqamətləri:məktəb təliminin ağlabatan üsullarının işlənilməsi, didaktikanın və metodikanın mübahisəli məsələlərinin eksperimental tədqiqatlar vasitəsilə öyrənilməsinin zəruriliyinin ön plana çəkilməsi. A.P.Neçayevin təşəbbüsü ilə 1910, 1913 və 1916-cı illərdə pedaqoji psixologiya və eksperimental pedaqogika üzrə keçirilən Ümumrusiya qurultaylarının maarifçilik ideyalarının genişlənməsində və təbliğində rolu.

Eksperimentin tətbiqinin əhatə dairəsinin genişlənməsində görkəmli psixoloq A.F.Lazurskinin (1874-1917) rolu. A.F.Lazurski "təbii eksperiment" anlayışını elmi dövrüyəyə daxil edən ilk psixoloq kimi. Təbbi eksperimentin kliniki-psixoloji tədqiqat metoduna oxşar olan psixoloji eksperiment növü kimi xarakteristikası.

Rusiyada eksperimental psixologiyanın inkişafında 1912-ci ildə Moskva universitetinin tarixi-filologiya fakültəsinin nəzdində Psixologiya institutunun açılmasının müstəsna əhəmiyyətə malik olması. Psixologiya institutunun təşkilində və onun 1914-cü ildə fəaliyyətə başlamasında Q.İ.Çelpanovun rolu. Onun 1915-ci ildə nəşr etdirdiyi "Eksperimental psixologiyaya giriş" adlanan dərsliyinin eksperiment metodunun psixoloji tədqiqatların aparılmasına tətbiq olunmasında mühüm rol oynayan amil kimi.

Keçən əsrin 20-ci illərindən başlayaraq eksperimental psixologiyanın yeni inkişaf mərhələsinə daxil olmasının tarixi-psixoloji şəraiti.

## Mövzu 8
## Azərbaycanda elmi psixologiyanın təşəkkül və inkişafının ümumi səciyyəsi

Azərbaycanda elmi psixologiyanın və eksperimental psixologiyanın təşəkkül və inkişafının tarixi-psixoloji şəraiti. Azərbaycanda

psixologiya elminin təşəkkülünün keçən əsrin 20-ci illərinə təsadüf etməsi. İlk mərhələdə psixologiyanın inkişafının ali məktəblərdə mərkəzləşməsi. ADU-da psixologiya kafedrasının təşkilində görkəmli rus filosofu və psixoloqu A.O.Makovelskinin rolu. Azərbaycanda eksperimental psixologiyanın inkişafında F.Ə.İbrahimbəyovun (1901-1985) rolu. F.Ə.İbrahimbəyov tərəfindən 1926-cı ildə ilk psixoloji laboratoriyanın yaradılması.

Azərbaycanda ilk eksperimental tədqiqatlar pedaqoji-psixoloji və psixotexnika istiqamətində aparılmışdır. (F.İbrahimbəyov, M.Hacıyev, M.Abbasov və b). Keçən əsrin 20-30-cu illərində psixologiyanın müxtəlif sahələri üzrə aparılan nəzəri və eksperimental tədqiqatlar elmi psixologiyanın inkişafına güclü təkan verməklə yanaşı, maarifçilik ideyalarının təbliğinə, psixologiyanın həyata, məktəb praktikasına gətirilməsinə əsaslı təsir göstərdi.

Keçək əsrin 50-ci illərindən başlayaraq Azərbaycanda psixologiyanın yeni inkişaf mərhələsinin başlanması və müxtəlif sahələr üzrə eksperimental tədqiqatların aparılması (M.C.Məhərrəmov, Z.M.Mehdizadə, Ş.S.Ağayev, M.Ə.Həmzəyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov və b.). Bakı Dövlət Universitetinin "Eksperimental psixologiya" laboratoriyasının fəaliyyəti. Ali məktəblərdə fəaliyyət göstərən psixologiya kafedralarında aparılan tədqiqatların ümumi istiqamətləri.

## Mövzu 9
## Eksperimental psixoloji cərəyanlar və onların ümumi xarakteristikası

Amerika psixologiyasında funksionalizm cərəyanının inkişafı və formalaşması. Bu cərəyanın yaradıcısı sayılan U.Cems (1842-1910) belə hesab edirdi ki,psixologiya insanın psixi aləminin bütün istiqamətlərdə öyrənilməsinə nail olmalıdır. Funksionalizm cərəyanı ətraf mühitlə orqanizm tələbatları arasında yaranan əlaqədə şüurun iştirakının əhəmiyyətli olması ideyasına əsaslanır. Funksionalizm psixologiyanın predmeti kimi psixi faktların funksiyalarının öyrənilməsini ön plana çəkirdi.

Strukturalizm cərəyanı V.Vundtun ideyalarının təsiri sayəsində formalaşmışdır. Strukturalizm şüurun eksperimental



tədqiqini zəruri sayırdı.Strukturalizmin görkəmli nümayəndələrindən olan E.Titçener (1867-1927) introspeksiyadan və eksperimental metodikalardan istifadə etməklə şüurun tərkibini öyrənməyə və perseptiv proseslərin yaranma səbəblərini aşkara çıxarmağa çalışırdı. Titçener psixologiyanı subyektin təcrübəsindən asılı olan bir elm kimi başa düşürdü və introspektiv metodun istifadə olunmasını daha əhəmiyyətli sayırdı.

Biheviorizm cərəyanının yaranması və inkişafı. Amerika psixologiyasında biheviorizm cərəyanınnı formalaşmasında C.B.Uotsonun (1878-1958) rolu. Biheviorizmdə psixologiyanın davranış haqqında olan bir elm kimi xarakteristikası. Biheviorizmə görə, psixologiya başlıca olaraq insanın davranışını öyrənməlidir. Bihevioristlərin əsas prinsipi S-R formasında öz əksini tapmışdır. Bu prinsip əsasında bihevioristlərə görə stimul-reaksiyaların ən sadə bioloji, qeyri-ixtiyari, instinktiv təzahürlərdən tutmuş, mürəkkəb sosial təzahürləri də öyrənmək olar. Bihevioristlər stimulla (bio-sosial) reaksiyanın (instinktiv və ya həyatda qazanılan) təzahürlərinin və ya əksinə, reaksiyanın stimula təsirini öyrənməyi əsas məqsəd kimi ön plana çəkirdilər.

Biheviorizmin tərəfdarları belə hesab edirdilər ki, davranışın əsasını stimul və reaksiya arasındakı qarşılıqlı əlaqə təşkil edir. Davranışın əsasında biogenetik (irsi) amillər deyil, sosiogenetik (ətraf mühit) amillər durur. C.B.Uotson belə hesab edirdi ki, insan psixikasında davranışın anadangəlmə aktları mövcud deyildir. Bihevioristlər psixi inkişafın əsasını mühitdə adaptasiya olunmaqda görürdülər. Bu istiqamətin tərəfdarları öyrənmənin həyat şəraitindən asılılığını əsas götürərək yaş dövrləri və onların inkişafetdirici ideyasını qəbul etmirdilər. Onların fikrincə eyni yaş dövrünə daxil olan uşaqlar üçün inkişafın göstəriciləri baxımından eyni qanunauyğunluqların mövcud olması mümkün deyildir.

Biheviorizmin görkəmli nümayəndələrindən olan C.B.Uotsonun və başqalarının apardıqları çoxsaylı tədqiqatlar göstərdi ki, psixi həyatın bütün sahələrini S-R sxeminə əsasən öyrənmək mümkün deyil. Mütləq daxili amillər nəzərə alınmalıdır. Bu amil klassik biheviorizmin modifikasiya olunmasına və neobiheviorizmin yaranmasına səbəb oldu. Neobihevioristlər biheviorizmin klassik

sxemini məhdud sayaraq göstərirdilər ki, davranışı yalnız S-R sxemi əsasında izah etmək olmaz və davranışı şərtləndirən daxili amillər, beynin fəaliyyəti və nəhayət şüurun davranışda iştirakı və ona təsiri mütləq nəzərə alınmalıdır.

Klassik psixologiyada geştal psixologiya istiqaməti keçən əsrin 20-ci illərində Almaniyada inkişaf edərək formalaşmırdır. Bu istiqamətin yaradıcıları M.Vertgeymer (1880-1943), V.Keler (1887-1967) və K.Levin (1890-1947) sayılırlar. Bu istiqamətin tərəfdarları belə hesab edirlər ki, psixologiyanın predmetini psixikanın məzmunu, idrak prosesləri, eləcə də şəxsiyyətin inkişaf dinamikası təşkil edir.

Geştaltpsixologiyanın tərəfdarları belə hesab edirlər ki, psixikanın əsasını şüurun ayrı-ayrı elementləri deyil, tam, bütöv geştaltlar (obrazlar) təşkil edirlər.

Geştaltpsixologiya bir neçə metodoloji yanaşmaya-psixi sahə, izomorfizm və fenomonoligiyaya istinad edir. Geştaltpsixologiyada qavrayışın inkişafının öyrənilməsi ilə əlaqədar aparılan tədqiqatlar. K.Levinin irəli sürdüyü "sahə nəzəriyyəsi"nin (topoloji nəzəriyyənin) mahiyyəti.

Psixoanaliz və dərinlik psixologiyasının formalaşmasının tarixi-psixoloji şəraiti. 1900 və 1901-ci illərdə Z.Y.Freydin (1856-1939) "Yuxuların yozulması" və "Adi həyatın psixopatologiyası" əsərlərinin nəşr olunması psixoanalizin bir elmi istiqamət kimi formalaşmasının nəzəri və praktik-tətbiqi amili kimi. Z.Y.Freydin, psixoanaliz cərəyanının yaradıcısı kimi fəaliyyətinin əsas istiqamətləri. Psixoanalizdə insanın həyatında intellektin yox, motivasiyanın rolunun ön plana çəkilməsi. Freydə görə, psixologiyanın predmeti psixikanın qeyri-şüuri strukturu, tədqiqat metodu isə psixoanalizdir. Psixoanalizin istinad anlayışları: şüur (şüurlu səviyyə), şüuraltı səviyyə, şüursuzluq. Psixi sferanın əsas törəmələri: "Mən", "İdeal mən", "O". Ləzzət və reallıq prinsipinin psixoloji mahiyyəti.

İnsanın psixikasının və sosial həyatının biolojiləşdirilməsi ilə əlaqədar psixoanalizin əsas müddəalarının tənqidi təhlili.



## Mövzu 10
## Eksperimentalogiyada müşahidə metodunun tətbiqinin xüsusiyyətləri

Empirik metodlar haqqında ümumi anlayış və onların ümumi xarakteristikası. Müşahidə. Verbal-kommunikativ metodlar (müsahibə və sorğu). Eksperiment. Testləşdirmə. Modelləşdirmə (psixikanın modellərşdirilməsi və psixoloji modelləşdirmə). Spesifik empirik metodlar və onların ümumi xarakteristikası (psixosemantik metodlar, psixomotor metodlar, psixoterapevtik medorlar, bioqrafik metodlar, sənədlərin öyrənilməsi metodları, praksimetrik metodlar, psixofizioloji metodlar).

Psixologiyada müşahidə metodu və onun psixoloji tədqiqatlarda istifadə imkanları. Müşahidə metodunun-obyektin davranışının məqsədyönlü qavrayışı və qeydə alınmasına yönələn bir metod kimi xarakteristikası. Müşahidə və özünümüşahidənin klassik psixologiyanın istifadə etdiyi ilk elmi metodlar kimi müqayisəli səciyyəsi. Müşahidə metodunun daha çox tətbiq olunduğu psixologiya elminin sahələri.

Sistematik və qeyri-sistematik müşahidənin tətbiq olunmasının xüsusiyyətləri. "Tam" və seçmə müşahidənin fərqli xüsusiyyətləri. Birbaşa və vasitəli müşahidə.

Müşahidənin nəticələrinin qeydə alınmasının xüsusiyyətləri. Müşahidəçinin müşahidə olunan şəraitə daxil olmasının variantları. Açıq və gizli müşahidə.

Müşahidə metodu əsasında aparılan tədqiqatların əsas mərhələləri: 1) müşahidənin predmetinin müəyyənləşdirilməsi, obyekt, situasiyalar, 2) müşahidənin aparılmasının və faktların qeydə alınmasının üsullarının müəyyənləşdirilməsi, 3) toplanılan materialın təhlili və interpretasiyası.

Müşahidə metoduna xas olan nöqsanların ümumi xarakteristikası. Aparılmış xüsusi psixoloji tədqiqatlar nəticəsində müşahidə metodunun tətbiqi şəraitində aşkarlanan tipik nöqsanlar: 1) qallo-effekt, 2) güzəşt effekti, 3) mərkəzi tendensiyanın səhvi, 4) korrelyasiyanın səhvi, 5) kontrastın səhvi, 6) ilk təəssüratın səhvi.

Eksperimental tədqiqatların aparılması şəraitində müşahidə metodunun istifadə olunma imkanları.

Az2286949



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

## Mövzu 11

## Müsahibə metodu və onun tətbiqi imkanları

Empirik metodlar içərisində müsahibə metodunun mövqeyi və tətbiqi imkanları. Müsahibə-insanın davranışının tədqiqinin spesifik metodu kimi. Tədqiqatın subyekti və obyekti arasında yaranan birbaşa ünsiyyət müsahibə metodunun fərqləndirici xüsusiyyəti kimi. Elmi və güzəran müsahibəsinin müqayisəli xatakteristikası. Müsahibənin- eksperimental metodun strukturasında əlavə bir metod kimi istifadə olunması. Müsahibə metodu vasitəsilə tədqiqatçı sınanılan haqqında ilkin məlumat toplayır, onu təlimatlandırır və eksperimentlərdə iştirakla bağlı stimullaşdırır. Kliniki müsahibənin "kliniki metod"un tərkib hissəsi kimi istifadə olunmasının xüsusiyyətləri. Kliniki müsahibə prosesində psixoloq sınanılanla aktiv dialoq əsasında onun fərdi-psixoloji xüsusiyyətləri haqqında, onun həyat yolu haqqında, şüurunun və şüuraltı vəziyyətinin məzmunu haqqında tam həcmdə informasiya toplamağa nail olur.

Müsahibə metodu əsasında əldə olunan faktların qeyd olunması. Bu prosesdə istifadə olunan üsulların özünəməxsus xüsusiyyətləri. Müsahibə metodunun tətbiqi şəraitində etik normalara riayət edilməsinin zəruriliyi.

## Mövzu 12

## İntervyu, arxiv və proyektiv metodlar və onların tədqiqat imkanları

İntervyu metodunun məqsədyönlü sorğunun xüsusi növü kimi xarakteristikası. Sosial psixologiyada və sosiologiyada intervyu metodunun tətbiqi imkanları.

İntervyunun-sorğunun aparılması prosesində sorğuya cəlb olunanla sorğunu aparan arasında qarşılıqlı inama əsaslanan münasibətin olmasının əhəmiyyəti. İntervyu prosesində tədqiqatçının neytral mövqeyi-sual və cavablara, onların məzmununa münasibətin nümayiş etdirilməməsi.

Anket metodu sorğunun özünəməxsus növü kimi. "Açıq" və "gizli" anketlərin istifadə olunmasının xüsusiyyətləri.



"Arxiv metodu" və onun empirik metodlar içərisində mövqeyi. Bu metodun fərqləndirici xüsusiyyətləri: psixoloq heç bir ölçmə aparmır, sınanılanın davranışı müşahidə olunmur. Psixoloq öyrəndiyi şəxsiyyətin gündəliklərini, arxiv materiallarını, əmək, təlim və yaradıcı fəaliyyətin məhsullarını təhlil edir. Şərti olaraq "arxiv metodu"nun "fəaliyyət məhsullarının təhlili" anlayışı ilə əvəz edilməsi.

Kliniki psixologiyada fəaliyyət prosesinin və nəticələrinin təhlili metodunun tətbiqi imkanları. Neyropsixologiyada və patopsixologiyada bu metodun tətbiqinin izahedici və təhliledici imkanlarının reallaşdırılması.

Proyektiv metod haqqında anlayış. Empirik metod olan proyektiv metodun aralıq mövqeyə malik olmaqla bir tərəfdən, psixoloji ölçmə ilə (testləşdirmə), digər tərəfdən isə fəaliyyət məhsullarının təhlili ilə sıx əlaqədə olan bir metod kimi xarakteristikası. Proyektiv metodun tətbiqinin xüsusiyyətləri.

## Mövzu 13

## Psixoloji eksperiment və eksperimental tədqiqatların təşkilinin bəzi xüsusiyyətləri

Aktiv və passiv metodlar haqqında ümumi anlayış. Laborator eksperimenti və kvazieksperimentin müqayisəli səciyyəsi. Passiv metodlar və onların tətbiqinin xüsusiyyətləri. İdeal tədqiqat anlayışının psixoloji mahiyyəti.

Psixoloji tədqiqatın təşkili metodlarının növləri: 1) eksperimental tədqiqat, sistematik müşahidə-tədqiqatçı əsas dəyişənlər arasında mövcud olan səbəbiyyət əlaqəsini aşkara çıxarır və xarici dəyişənlərə nəzarət edir, 2) təbii eksperiment, müşahidə, müsahibə, kliniki metod; bu metodlar davranışın xüsusiyyətlərinin aşkara çıxarılmasında istifadə olunur, 3) kvazieksperiment; bu tipli eksperiment şəraitində eksperimentator tədqiq olunan obyektə təsir göstərmir.

Eksperimental tədqiqatların özünəməxsus xüsusiyyətləri. Eksperimental metodun tədqiqat imkanlarına uyğun gəlməyən metodlar: 1) klassik kliniki metod, 2) təbii müşahidə, 3) sorğu-anket,

4) arxiv tədqiqatı, 5) korrelyasion əlaqələrin müəyyənləşdirilməsi, 6) kvazieksperiment.

Müstəqil dəyişənlərlə aktiv işin aparılması eksperimental tədqiqatın özünəməxsus xüsusiyyəti kimi. Eksperimental tədqiqat prosesində əsas və kontrol sınanılanlar qrupunun müqayisəli planda öyrənilməsi.

## Mövzu 14
## Eksperimental tədqiqatların əsas tipləri və növləri

Formal əlamətlər əsasında eksperimental tədqiqatın tipləri. Tədqiqedici (axtarıcı) və təsdiqedici eksperiment haqqında anlayış. Onların fərqləndirilməsi problemin işlənilmə səviyyəsi ilə, asılı və asılı olmayan dəyişənlərin əlaqəsi haqqında biliklərin olması ilə əlaqədardır. Axtarıcı (eksplorator) eksperimenti asılı və asılı olmayan dəyişənlər arasında səbəbiyyət əlaqəsinin olmasının məlum olmaması şəraitində aparılır. Təsdiqedici (konfirmator) tədqiqatın aparılması şəraitində asılı və müstəqil dəyişənlər arasında mövcud olan əlaqələrin funksional kəmiyyət növləri müəyyənləşdirilir.

Eksperimental tədqiqatın müxtəlif növləri: kritik eksperiment, pilotaj eksperimenti, təbii eksperiment. Kritik eksperimentin mahiyyəti: eyni zamanda mümkün olan bütün hipotezləri (fərziyyələri) yoxlamaq imkanı mövcud olur. "Pilotaj tədqiqatı" anlayışı. Eksperimentin bu növünün aparılması planlaşdırılan eksperimental tədqiqatın hazırlıq mərhələsi kimi xarakteristikası. Pilotaj eksperimenti az sayda olan sınanılanlar qrupu ilə aparılır. Pilotaj eksperimentinin aparılması şəraitində alınan faktların etibarlılığı yüksək olmasa da belə, onun aparılması hipotezin irəli sürülməsi və tədqiqatın planlaşdırılması ilə əlaqədar buraxıla biləcək kobud səhvlərin aradan qaldırılmasına imkan verir.

Çöl tədqiqatı və ya təbii eksperiment real xarakterli dəyişənlər arasında mövcud olan əlaqələri öyrənir. Təbii eksperiment kvazieksperimentin bir növü kimi Çöl tədqiqatının və ya təbii eksperimentin fərqləndirici xüsusiyyətə: xarici dəyişənlərə nəzarət etmək, qrupları seçmək və onun daxilində sınanılanları paylamaq, asılı olmayan (müstəqil) dəyişənləri idarə etmək və asılı dəyişənlərin dəqiq qeydiyyatını aparmaq qeyri-mümkün olur. Bəzi hallarda təbii



eksperimentin laborator eksperimentinin ümumi sxeminə uyğunlaşdırılmasının zəruriliyi. Təbii ekspement şəraitində əldə olunan faktların dəfələrlə yoxlanılması və araşdırılması imkanının mövcud olması.

Psixoloji tədqiqatın nəzəri metodları haqqında anlayış. Nəzəri tədqiqatlarda istifadə olunan əsas özünəməxsus metodlar: 1) Ümumiləşdirmə; 2) İzah; 3) Analiz və sintez; 4) Təsnifat; 5) Mücərrədləşdirmə ; 6) İnduksiya və deduksiya.

## Mövzu 15
## Eksperimental tədqiqatın əsas mərhələləri haqqında anlayış

Eksperimental tədqiqatın mərhələləri haqqında ümumi anlayış. Aparılacaq tədqiqatın mövzusunun müəyyənləşdirilməsi onun əsas və başlanğıc mərhələsi kimi. Tədqiqatçı tam aydınlığı ilə mövzu seçimini və problemin öyrənilməsinin vacibliyini yəqinləşdirməlidir. Empirik tədqiqatlar üç halda aprılır: a) hadisələrin mövcud olması haqqında fərziyyələrin yoxlanılması, b) hadisələr arasında əlaqələrin olması haqqında fərziyyələrin yoxlanılması, c) "A" hadisəsini "B" hadisəsindən səbəbiyyət asılılığı haqqında fərziyyənin yoxlanılması. Eksperiment hadisələr arasında əlaqələrin səbəblərinin aşkara çıxarılması məqsədinə xidmət edir.

Problemin ilkin quyuluşundan sonra elmi ədəbiyyatın öyrənilməsi mərhələsi. Bu mərhələ çərçivəsində psixoloq tədqiqatın aparılmasının zəruriliyini və onun aparılma imkanlarının obyektiv olaraq mövcudluğunu özü üçün aydınlaşdırmalı və təsdiqləməlidir.

Tədqiqatın hipotezinin (fərziyyəsinin) müəyyənləşdirilməsi. Bu mərhələdə tədqiqatçı-psixoloq əsaslandığı hipotezi dəqiqləşdirir və istifadə olunacaq müstəqil dəyişənlər müəyyənləşdirilir.

Tədqiqatın metodikasının müəyyənləşdirilməsi mərhələsi. Bu mərhələdə tədqiqatçı nail olmalıdır: a) asılı olmayan dəyişənləri idarə etməlidir, b) asılı olan dəyişənlərin qeydiyyatını aparmalıdır.

Eksperimental tədqiqatın planlaşdırılması mərhələsi-aparılan bütün işlərin mərkəzi mərhələsini təşkil edir. Bu mərhələdə asılı dəyişənlərə təsir edə biləcək xarici dəyişənlər müəyyənləşdirilir.

Eksperimentin aparılması psixoloji tədqiqatın ən məsuliyyətli mərhələsi sayılır. Bu mərhələdə qarşıda duran konkret vəzifələr: a)

eksperimentin hazırlanması (tədqiqatçı eksperimentin aparılması üçün zəruri olan bütün şəraitin yaradılmasını təmin edir), b) sınanılanların təlimatlandırılması və motivləşdirilməsi (təlimat özündə motivasiya komponentlərini əks etdirməlidir), c) eksperimentləşdirmə və ya eksperimentin aparılması.

Tədqiqatın sonuncu mərhələsini-alınan nəticələrin işlənilməsinin və izahının statistik metodlarının müəyyənləşdirilməsi təşkil edir.

## Mövzu 16
## Eksperimental tədqiqatın nəticələrinin işlənilməsi, ümumiləşdirilməsi və təhlili

Psixoloji tədqiqatın yekun mərhələsi haqqında ümumi anlayış. Tədqiqatın son-yekun mərhələsinin tərkib hissələri: nəticələrin işlənilmə qaydaları, məlumatların sistemləşdirilməsi, faktların interpretasiyası və əsaslandırılması, əldə olunan məlumatların öyrənilən problemin ümumi tədqiqat sxeminə daxil edilməsi. Eksperimental tədqiqatın aparılması nəticəsində əldə olunan faktların, toplanılan məzmunlu materialların psixofizioloji, psixogenetik, psixososial və psixopedaqoji prinsiplər əsasında təhlilinin nəzəri-psixoloji əsasları. Riyazi-statistik metodların istifadə imkanları.

Tədqiqatın nəticələrinin işlənilməsi qaydaları. Nəticələrin izahı prosesində qrafiklərdən və müvafiq təhliledici və izahedici vasitələrdən istifadə olunması. Toplanılan faktların ümumiləşdirilməsi və təhlili. Eksperimental tədqiqatın gedişi prosesində tərtib olunan sənədlərin təhlili və əldə olunan faktların etibarlılıq baxımından interpretasiyası və qiymətləndirilməsi. İnterpretasiyanın funksiyaları və vəzifələri. Nəticələr və tədqiqatın elmi-psixoloji biliklər sisteminin tərkibinə daxil edilməsi. Nəticələrin məzmun və formasının tərtibinə verilən tələblər.



## Mövzu 17
## Psixoanalizdə, analitik psixologiyada və fərdi psixologiyada şəxsiyyətin psixogenetik inkişafının bəzi məsələləri

Psixoanaliz, onun təşəkkül və inkişafının tarixi-psixoloji şəraiti. Z.Y.Freyd (1856-1939) psixoanaliz cərəyanın yaradıcısı kimi.Freydə görə, insanın psixi həyatında üç səviyyə fərqləndirilməlidir: şüurlu, şüuraltı və senzuranı (nəzarəti) özündə birləşdirən şüursuzluq. Şüursuzluq fenomeninin insanın şəxsi və sosial həyatında rolu. Freydizmin şəxsiyyət və onun inkişafı haqqında baxışlarının ümumi psixoloji nəzəriyyəyə çevrilməsi. Freydin nəzəri baxışlarına görə, şəxsiyyətin strukturu üç instansiya haqqında olan təlim əsasında müəyyənləşir: "Mən", "O", "İdeal Mən". Bu mərhələlər arasında formalaşan psixoloji və psixososial əlaqə və asılılıqlar şəxsiyyətin mahiyyətinin əsasını təşkil edirlər. Qeyd edilən yanaşma psixoanalizin fəlsəfi sisteminə çevrilməsini şərtləndirmişdir.

Görkəmli psixoloq, psixiatr və psixoterapeft kimi tanınan K.Q.Yunq (1875-1961) özünün irəli sürdüyü konsepsiyasını analitik psixologiya adlandırmışdır. Analitik psixologiyanın mərkəzi məzmununu şüyrsuzluq və şəxsiyyətin inkişaf prosesi haqqında təlim təşkil edir. K.Q.Yunq psixikanı şüurlu və şüursuzluğa ayırmaqla yanaşı, şüursuzluğun iki sistemini-şəxsi və kollektiv sistemi haqqında ideyasını irəli sürmüşdür. Şəxsi şüursuzluqlar psixikanın səthi qatıdır və onun məzmunu fərdi təcrübə ilə əlaqədardır: unudulmuş xatirələr, sıxışdırılmış impuls və arzular (istəklər), unudulmuş travmatik təəssüratlar. K.Q.Yunq kollektiv şüursuzluğa böyük əhəmiyyət verirdi. Kollektiv şüursuzluq-şəxsiyyətdən yüksəkdə duran şüursuz psixikadır və öz tərkibində instinktləri, tələbatları, meyilləri birləşdirməklə insanı təbii varlıq kimi təqdim edir. Kollektiv şüursuzluq fərdin inkişafından, onun şüurundan asılı deyildir. Kollektiv şüursuzluğa daxildir: milli, irqi və ümumbəşəri baxışlar, inamlar, köhnəlmiş və düzgün olmayan baxışlar.

K.Q.Yunq şəxsiyyətin formalaşması prosesini fərdiləşmə adlandırırdı. Onun məqsədi şüurlu və şüursuzluğu birləşdirməkdə, müvazinətləşdirməkdə və əlaqələndirməkdə ifadə olunur. K.Q.Yunq

şəxsiyyətin fərdiləşməsində iki istinad tipli anlayışı fərqləndirir: xarici aləmə yönələn eksteriovertliyi və daxili aləmə yönələn introvertliyi.

Görkəmli Avstriya filosofu və psixoloqu A.Adlerin (1870-1937) irəli sürdüyü fərdi psixologiya adlanan istiqamət şəxsiyyətin inkişafının bütöv bir sistemini əks etdirir. A.Adler şüursuz instinktlərin dominant mövqeyə malik olması ideyasını inkar edərək belə hesab edirdi ki, insanın davranış və həyatını şərtləndirən ən böyük qüvvə-insanlar arasında birlik və bu əsasda sosial əlaqələrin yaranması prosesinin stimullaşdırılmasıdır.

A.Adler şəxsiyyətin inkişafında insanın özünün fərdiyyətliliyini saxlamasını yüksək qiymətləndirirdi. Şəxsiyyətin təkrarolunmazlığı və bütövlüyü haqqında A.Adlerin baxışları. "Yaradıcı Mən" anlayışı A.Adler şəxsiyyət nəzəriyyəsinin mərkəzi istiqaməti kimi. A.Adlerə görə, "Yaradıcı Mən" şəxsiyyətin inkişafını fərdiləşdirir və bu əsasda insanın həyat təcrübəsi xarakterizə edilərək müxtəlif istiqamətdə mənalandırılır. İnsan öz şəxsiyyətinin yaradıcısıdır, o, özünün şəxsi həyat üslubunu müəyyənləşdirir. "Yaradıcı Mən" insanın həyatının mənasını təşkil edir. A.Adlerə görə, həyat üslubunun formalaşması insandan böyük yaradıcılıq və aktivlik tələb edir. Ümumilik hissi və gələcəyə istiqamətlənən məqsədlər bu prosesi daha da fəallaşdırır.

### Mövzu 18
### Müasir eksperimentalogiyanın bəzi sahələrinin ümumi səciyyəsi

Psixofizika və psixofiziologiyanın-eksperimental psixologiyanın sahələri kimi ümumi xarakteristikası. Koqnitiv proseslərin tədqiqi. Psixikanın ontogenetik inkişafının psixopedaqoji problemlərinin eksperimental tədqiqi. Yaş mərhələlərinin ontogenetik inkişafının qanunauyğunluqlarının öyrənilməsi.

Şəxsiyyətin psixososial tədqiqinin əsas istiqamətləri. Şəxsiyyət və motivasiya. Şəxsiyyət və şəxsiyyətlərarası münasibətlərin psixososial problemlərinin eksperimental tədqiqi.

Psixopedaqoji problemlərin eksperimental tədqiqinin praktik-tətbiqi istiqamətləri.



### "Eksperimental psixologiya" kursu üzrə tematik plan

| Sıra № | Məşğələnin mövzusu | Mühazirə | Seminar |
|---|---|---|---|
| | | Saat | |
| 1 | Eksperimental psixologiyanın mövzusu və vəzifələri | 2 | 2 |
| 2 | Eksperimental psixologiyanın inkişafının qısa tarixi-psixoloji səciyyəsi | 2 | 2 |
| 3 | Almaniyada eksperimental psixologiyanın inkişafı | 2 | 2 |
| 4 | İngiltərədə eksperimental psixologiyanın inkişafı | 2 | 2 |
| 5 | Amerikada eksperimental psixologiyanın inkişafı | 2 | 2 |
| 6 | Fransada eksperimental psixologiyanın inkişafı | 2 | 2 |
| 7 | Rusiyada eksperimental psixologiyanın inkişafı | 2 | 2 |
| 8 | Azərbaycanda elmi psixologiyanın təşəkkülü və inkişafının ümumi səciyyəsi | 2 | 2 |
| 9 | Eksperimental psixoloji cərəyanlar və onların ümumi xarakteristikası | 2 | 2 |
| 10 | Eksperimentalogiyada müşahidə metodunun tətbiqinin xüsusiyyətləri | 2 | 2 |
| 11 | Müsahibə metodu və onun tətbiqi imkanları | 1 | 1 |
| 12 | İntervyu, arxiv və proyektiv metodlar və onların tədqiqat imkanları | 1 | 1 |

| | | | |
|---|---|---|---|
| 13 | Psixoloji eksperiment və eksperimental tədqiqatların təşkilinin bəzi xüsusiyyətləri | 2 | 2 |
| 14 | Eksperimental tədqiqatların əsas tipləri və növləri | 2 | 2 |
| 15 | Eksperimental tədqiqatın əsas mərhələləri haqqında anlayış | 1 | 1 |
| 16 | Eksperimental tədqiqatın nəticələrinin işlənilməsi, ümumiləşdirilməsi və təhlili | 1 | 1 |
| 17 | Psixoanalizdə, analitik psixologiyada və fərdi psixologiyada şəxsiyyətin psixogenetik inkişafının bəzi məsələləri | 1 | 1 |
| 18 | Müasir eksperimentalogiyanın bəzi sahələrinin ümumi səciyyəsi | 1 | 1 |
| | **CƏMİ:** | **30** | **30** |



## Ədəbiyyat


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Dərslik. "Çinar-çap" nəşriyyatı. Bakı, 2001.
2. Əliyev R.İ., Mustafayev M.Q. Azərbaycanda psixologiya elminin inkişaf tarixindən. Bakı, 2006.
3. Əliyev R.İ. Psixologiya tarixi. Dərs vəsaiti. Bakı,2006.
4. Əmrahlı L.Ş. Eksperimental psixologiya. Dərs vəsaiti. Bakı, 2008.
5. Qurbanova L. Eksperimental psixologiya. Dərs vəsaiti. Bakı, 2014.
6. Quliyev E.M. Eksperimental psixologiya. Testlər. Tədris vəsaiti. ADPU-nun nəşri. Bakı, 2014.
7. Şəfiyeva E.İ., Həmzəyev M.Ə. Psixofiziologiya. Bakı, 1988.
8. Şəfiyeva E.İ.Kliniki psixologiya. Bakı, 2002.
9. Багданова Т.Г., Корнилова Т.В.Диагностика познавательной сферы ребенка. М., Педагогика, 1994.
10. Бине А. Измерение умственных слпсобностей-СПб., 1998.
11. Бурменская Г.В., Карабанова О.Г., Лидерс А.Г. Возрастно-психологическое консультирование. М., 1990.
12. Бурлачук Л.Ф., Морозов С.М.Словар-справочник по психодиагностике. СПб., 1999.
13. Белкина В.Н.Психология раннего и дошкольного детства. М., 2005.
14. Ведехина С.А.Клиническая психология. Шпаргалки. Учебное издание. Эксмо.М., 2009.
15. 100 великих психологов. Автор-составитель В.Яровицкий. Изд-во « Вече». М., 2004.
16. Венгер Л.А.Диагностика умственного развития дошкольников. М., 1987.
17. Выготский Л.С.Волросы детской психологии. СПб., 1997.
18. Введение в психологию. Под общей редакцией А.В.Петровского. «Академия». М., 1996.
19. Гоммсданкер Р.Основы психологического эксперимента. Пер. с англ.-М.: Изд-во. МГУ, 1982.

20. Грейс Крайг, Дон Бакум. Психология развития. СПб,: Питер, 2006.
21. Газен В.А., Балин В.Д.Теория и методология психологического исследования. Практическое руководство. СПб.. 1991.
22. Дружинин В.Н.Экспериментальная психология. М.: Просвещение, 1997.
23. Джонсон Х.Х., Бил М.К.Экспериментальная психология. СПб., «прайм- Евразнак», 2001.
24. Ждан А.Н.История психологии. Изд-во МГУ.М., 1990.
25. Зароченецев К.Д., Худяков А.И.Экспериментальная психология. М.: Проспект, 2005.
26. Корнилова Т.В.Введение в психологический эксперимент.М., 1997.
27. Куликов Л.М.Методология и методы психологического исследования. СПб., 1999.
28. Лучинин С.А.Психодиагностика. Шпаргалки. Учебное издание. Эксмо.М.,2010.
29. Методы исследования в психологии: Квазиэксперимент. Под редакцией Т.В.Корниловой-М.:Форм-Инфра-М, 1998.
30. Мельников В.М., Ямполький Г.Т.Введение в экспериментальную психологию личности. Учебное пасобие. «Просвещение» М., 1985.
31. Никандров В.В.Наблодение и эксперимент в психологии. СПб.: Речь, 2001.
32. Никандров В.В.Экспериментальная психология. СПб.: Речь, 2007.
33. Никандров В.В.Неэморические методы психологии. СПб, 2003.
34. Никандров В.В.Психофизика и психофизические методы. СПб., 2004.
35. Психолого-педагогическая диагностика. Под редакцией И.Ю.Левченко, С.Д.Забрамной. «Академия». М., 2008.
36. Регуш Л.А.Наблюдение в практической психологии. СПб., 1996.



37. Солсо Р., Маклин К.Экспериментальная психология СПб., «прайм-Евразнак», 2006.
38. Смирнова Е.О.Детская психология. Учебник.М., 2003.
39. Уоллес Диксон. 20 великих открытий в детской психологии. Сант-Петербург- «Прайм-Еврознак», 2007.
40. Урунтаева Г.А.Детская психология.Учебник. М.,2006.
41. Ярощевский М.Г.Психология в XX столетии. 2-ое издание. М.,1974.
42. Фрейд З.Лекции по введению в психоанализ.М.,1989.
43. Челпанов Г.И.Введение в эксперименталькую психологию. М., 1915;1918.

*Çapa imzalanmış 07.10.2015- ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 2*
*Sifariş 457 sayı 200*

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyov küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E.mail. ADPU@Box.az***

A2f 286949